

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 194 (23.836)

*20 oktyabr 2021-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib. Görüşdə Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişaf perspektivləri müzakirə edilib, Avropa İttifaqının Azərbaycanla əməkdaşlığın inkişafına önəm verdiyi vurğulanıb, Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğu bildirilib.

Söhbət zamanı bu ilin iyul ayında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfərinə toxunularaq səfər zamanı Prezident İlham Əliyevlə Şarl Mişel arasında keçirilən görüşün Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafına mühüm töhfə verdiyi qeyd olunub.

* * *

Prezident İlham Əliyev oktyabrın 19-da Xorvatiyanın xarici və Avropa işləri üzrə naziri Qordan Grliç Radmanı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Slovakiyanın xarici işlər və Avropa naziri İvan Korçoku qəbul edib.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti oktyabr ayının ötən dövrü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2021-ci il 1 oktyabr tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən dövlət sosial sığorta şəhadətnaməsinin dəyişdirilməsi və ya dublikatının verilməsi üçün müraciətin qəbulu xidməti "Elektron xidmət növlərinin Siyahısı"ndan çıxarılmışdır.

Nazirlər Kabinetinin 2021-ci il 4 oktyabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsulları istehsalçılarına əkin sahəsinə, məhsul istehsalına, toxum və ting satışına görə verilən subsidiya əmsallarının təsdiq edilməsi haqqında" 2019-cu il 26 dekabr tarixli Qərarında edilmiş dəyişikliyə görə 2022-ci il üçün kənd təsərrüfatı bitkilərinin əkin əmsalları və əkin subsidiyalarının yeni məbləği təsdiq edilmiş, tütün növləri üçün məhsul subsidiyasının məbləği müəyyən edilmişdir. Qeyd edək ki, növbəti ildən başlayaraq 10 hektar və daha çox torpaq sahəsində sığortalanmalı olan bitkinin becərilməsinə görə əkin subsidiyası sığorta müqaviləsi bağlandıqdan sonra veriləcəkdir.

Həmçinin Nazirlər Kabinetinin 2021-ci il 8 oktyabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında xüsusi təhlükəli heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi məqsədilə dövlət büdcəsindən maliyyələşdirilən, dövlət sifarişi ilə göstəriləcək baytarlıq xidmətlərinin Siyahısı" təsdiq edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2021-ci il 11 oktyabr tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası prokurorluq orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci ilin 21 iyul tarixli 131 nömrəli Qərarı ləğv edilmişdir.

Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli digər bir Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən çoxuşaqlı analara yaşa görə müavinətin təyin edilməsi üçün qadının 5 və daha çox uşaq doğub onları 8 yaşınadək tərbiyə etməsi barədə, eləcə də uşaqlarını təkbaşına böyüdən atalara yaşa görə müavinətin təyin edilməsi üçün atanın 5 və daha çox uşağı növbəti nikah bağlamadan təkbaşına 8 yaşınadək böyütməsi barədə yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə və ya sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinin arayışı tələb olunur. Həmçinin 5 və daha çox uşağı 8 yaşınadək böyüdən qəyyum kişilərə, 5 və daha çox uşağı övladlığa götürüb təkbaşına 8 yaşınadək böyüdən atalara yaşa görə müavinətin təyin edilməsi üçün zəruri sənədlər müəyyən edilmişdir. Qeyd edək ki, müvafiq dəyişikliyədək çoxuşaqlı analara və uşaqlarını təkbaşına böyüdən atalara yaşa görə müavinətin təyin edilməsi üçün 3 və daha çox uşağın olması barədə arayış tələb olunurdu.

Nazirlər Kabinetinin digər Qərarı ilə "Elektrik enerjisindən istifadə Qaydaları"na edilmiş dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin səlahiyyətli nümayəndələrinin sahibkarlıq subyektlərinin sayğaclarının göstəricilərinin oxunması zamanı həmin sayğaca müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin razılığı olmadan paylayıcı şəbəkəyə qoşulma) hallarını müəyyən etdikdə, qanunvericiliyin tələbləri nəzərə alınmaqla yoxlama keçirilməsi ilə bağlı tədbirlər görməlidirlər.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

## Şəhid ailələri və Vətən müharibəsi iştirakçıları yüksək diqqət və qayğı ilə əhatə olunurlar

***Ötən ilin sonlarında başlayan və tariximizə qızıl hərflərlə yazılmış Vətən müharibəsindən sonrakı bərpa tədbirləri ilə yanaşı, hərbi əməliyyatlardan zərərçəkmiş insanlara, xüsusən də şəhid ailələrinə, qazilərə hərtərəfli qayğı Azərbaycan dövlətinin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Bu sahədə həyata keçirilən tədbirlər muxtar respublikamızda sistemli və ardıcıl xarakter daşıyır, bu məqsədlə bir sıra tədbirlər həyata keçirilir.***



Vətən müharibəsi zamanı torpaqlarımızın azad olunmasında qəhrəmanlıq göstərmiş şəxslərə və onların ailə üzvlərinə xüsusi diqqət, qayğı ilə yanaşılır, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bu kateqoriyadan olan şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Bu tədbirlər çərçivəsində, oktyabrın 19-da müvafiq kateqoriyadan olan daha iki ailənin yaşayış sahəsində aparılan təmir-bərpa işləri başa çatdırılıb, mənzil və fərdi yaşayış evi ailə üzvlərinin istifadəsinə verilib.

Vətən müharibəsi iştirakçısı Zeynalov Təbriz Eyvaz oğlunun Naxçıvan şəhərində yerləşən mənzilində də təmir işləri başa çatdırılıb. Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov mənzildə yaradılan şəraitlə maraqlanıb və ölkəmizdə və onun ayrılmaz hissəsi olan muxtar respublikamızda əhalinin sosial müdafiəsinin gücləndirilməsinə göstərilən hərtərəfli diqqət və qayğıdan danışıb. Bildirilib ki, bu qayğının əsas istiqamətlərindən birini də müharibə iştirakçılarına və şəhid ailələrinə göstərilən sosial dəstək tədbirləri təşkil edir. Mirsənani Seyidov qeyd edib ki, Vətən müharibəsi zamanı, tarixi zəfərin qazanılmasında Naxçıvandan olan hərbçilərimiz də cəsarətlə iştirak edib, yüksək iradə, döyüş əzmi göstəriblər. Vurğulanıb ki, Vətən uğrunda qəhrəmanlıq vuruşaraq şəhid olan və döyüşlərdən qəhrəman kimi ayrılan, cəsur, igid, qorxmaz Azərbaycan oğullarına xalqımız daim minnətdar olacaqdır.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev isə bildirib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak edən bütün muxtar respublika sakinlərinin sosial müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər ardıcıl olaraq davam etdirilir. Nazir əlavə edib ki, şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən qayğının növbəti ifadəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərmanı əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu yaradılmışdır. Fonda könüllü ianələrin ödənişi hazırda da davam etdirilir. Bu gündək fondun vəsaitləri hesabına, müvafiq kateqoriyadan olan şəxslərin muxtar respublika xaricində müalicə və müayinələrinə köməklik göstərilib, onların kredit borcları qarşılanıb və zəruri hallarda yaşayış sahələrində təmir-bərpa işləri aparılıb.

Mirsənani Seyidov və Nicat Babayev müharibə iştirakçılarına, şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Həmin gün Vətən müharibəsi şəhidi, Şuşa uğrunda gedən döyüşlərdə şəhid olan Rüstəmov Basid İdris oğlunun Kəngərli rayonunun Xok kəndində yerləşən evi təmirdən sonra ailə üzvlərinə təhvil verilib. Mənzilin təmirdən sonrakı şəraiti ilə tanış olan Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov bildirib ki, Vətən müharibəsində ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu siyasəti və rəşadətli Azərbaycan Ordusunun göstərdiyi igidlik sayəsində 44 gün ərzində 30 illik həsrətə son qoyulub. Bu müharibədə Kəngərli rayonundan 24 şəhid, onlarla qazi olub. Dövlət tərəfindən bütün şəhid ailələri və qazilərə yüksək diqqət və qayğı göstərilməkdədir. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılır, şəhidlərimizin məzarüstü abidələri və ətrafında abadlıq işləri aparılır.



Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev ailənin qayğıları ilə maraqlanıb və qeyd edib ki, ötən müddət ərzində, göstərilən sosial xidmətlər çərçivəsində Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə müvafiq vəsiqələr verilib, Prezident təqaüdü, sosial müavinətlər təyin olunub, Vətən müharibəsi qəhrəmanlarına Prezident təqaüdü ödənilib. Həmçinin müharibə iştirakçılarının Naxçıvan Əlillərin Bərpa Mərkəzində müalicələri təşkil olunub, onlara müvafiq reabilitasiya vasitələri təqdim edilib. Əlavə olaraq bu müddət ərzində Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları və yaralananlar üçün Psixoloji Dəstək Xidməti təşkil edilib və burada müharibədən zərərçəkmiş insanlar üçün müvafiq seanslar aparılıb.

Kamal Ələkbərov və Nicat Babayev müharibə iştirakçılarına, şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, hər iki ailənin üzvlərinə ehtiyaclarına uyğun hədiyyələr təqdim olunub. Şəhid və Vətən müharibəsi iştirakçılarının ailələri onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin ali təhsil müəssisələri sırasında özünəməxsus yeri olan Naxçıvan Dövlət Universiteti haqqında dediyi sözlər hər birimizdə qürur hissi yaradır:* ***“Naxçıvan Dövlət Universiteti zəngin maarifçilik ənənələrinə malik Naxçıvan diyarında yüksəkixtisaslı kadrların yetişdirilməsinə, elmi mühitin formalaşdırılmasına və bütövlükdə, regionun tərəqqisinə öz müsbət təsirini göstərmişdir. Onun məzunları bu gün Azərbaycanda milli dövlət quruculuğunun ən müxtəlif sahələrində yaxından iştirak edir, ölkəmizin iqtisadi, elmi və mədəni potensialının gücləndirilməsinə layiqli töhfələr verirlər”.***

*Bu gün Naxçıvan Dövlət Universiteti, sözün həqiqi mənasında, ölkənin ən nüfuzlu, qabaqcıl təhsil ənənələrinə malik tədris ocaqlarından biridir. Universitetin müasir inkişaf mərhələsi, fəaliyyət istiqamətləri, yeni infrastrukturunun qurulması Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun digər sahələrdə olduğu kimi, təhsilin inkişafında da ümummilli lider Heydər Əliyev siyasətinə sədaqətinin bəhrələridir. Bir-birindən gözəl tədris korpuslarının inşa edilməsi və ya yenidən qurulması, onların müasir tədris vasitələrilə təmin edilməsi sahəsində görülən işlər Ali Məclis Sədrinin universitetin professor-müəllim heyətinə, çoxminli tələbə kontingentinə qayğısının ifadəsidir.*



# Muxtar respublikamızda aparılan uğurlu təhsil siyasəti xarici ölkə vətəndaşlarının da burada ali təhsil almaq marağını artırıb

## *Bunu Naxçıvan Dövlət Universitetinin timsalında daha aydın görmək mümkündür*

Son illərdə burada ali təhsil alanlar sırasında əcnəbi tələbələrin də sayı xeyli artıb. Bu günlərdə Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri İlahə Hüseynova ilə əcnəbi tələbələrə yaradılan tədris şəraiti, onların universitetdəki fəaliyyəti barədə həmsöhbət olduq.

***– İlahə xanım, oxucularımız üçün də bunu bilmək maraqlı olar ki, Naxçıvan Dövlət Universitetində neçə ölkədən təhsil alan tələbə vardır? Onlar içərisində üstünlüyü hansı ölkə təşkil edir?***

– Naxçıvan Dövlət Universitetində dünyanın bir çox ölkələrindən gələn tələbələr təhsil alır. Bu ölkələrin sayı, təxminən, 10-a yaxındır və həmin ölkələr içərisində üstünlük təşkil edən Türkiyə Respublikasıdır. Hər il Türkiyədən bizə minlərlə tələbə müraciət edir və onların qəbul prosesləri mövcud qaydalara uyğun həyata keçirilir. O cümlədən Cənubi Koreya, Özbəkistan, Pakistan, Banqladeş, Nigeriya və digər ölkə vətəndaşları da müxtəlif ixtisaslar üzrə ali təhsil alırlar.



***– Şübhəsiz ki, xarici tələbələrin buraya gəlib təhsil alması universitetdə yaradılan şəraitlə bağlıdır. İstərdim ki, bu barədə oxucularımıza ətraflı məlumat verəsiniz.***

– Buna bir çox nümunə göstərmək olar. Lakin onlardan başlıcasını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun ali təhsil ocağına göstərmiş olduğu gündəlik diqqət və qayğı təşkil edir. Universitetimizin tələbə evi, zəngin elektron kitabxanası, xəstəxanası və digər imkanlarından istifadə bu ali təhsil ocağına olan marağı daha da artırmışdır. Eyni zamanda universitetimizdə tələbələrin Naxçıvanın tarixi yerlərini gəzib tanımaları üçün respublikamızda fəaliyyət göstərən muzey və sərgilərə mütəmadi turların təşkil edilməsi üçün də şərait yaradılmışdır.

***– İlahə xanım, yəqin ki, sizin burada hər bir tələbə ilə fərdi şəkildə görüşüb söhbət etmək imkanınız olub. Deyə bilərsinizmi, ümumiyyətlə, əcnəbi tələbələrin bu ali təhsil ocağına maraq göstərmələrinin səbəbi nədir?***

– Bir az əvvəl qeyd etdiyim kimi, ən bariz səbəb muxtar respublika rəhbərinin universitetimizə göstərdiyi diqqət və qayğıdır. Naxçıvanda təhlükəsizliyin ən yüksək səviyyədə təşkil olunması, sabitlik, universitetimizin dünyanın ən nüfuzlu reytinq cədvəlində yer alması, dünyanın bir çox ölkəsi ilə beynəlxalq səviyyədə əlaqələrin qurulması, universitetdə çoxprofilli kadr hazırlığının həyata keçirilməsi, Azərbaycanda ali təhsil müəssisələri arasında yeganə modern üsulda kampusa sahib olması, ölkəmizdə ilk olaraq Teknoparkın yaradılması prosesi, müasir laboratoriya və auditoriyalarla təchiz edilməsi əcnəbilərin bu prestijli ali təhsil ocağına maraq göstərmələri üçün əsas səbəblərdir. O cümlədən bu ildən başlayaraq universitetimizin ikili diplom layihələrində fəal iştirakı, tələbə və müəllim mobilliyinə cəlb olunması bu marağı daha da artırır.



***– Təbii ki, təhsil alan xarici tələbələr adət-ənənələrimizi burada öyrənirlər, bəs universitetdə bu istiqamətdə nə kimi işlər həyata keçirilir?***

– Mütəmadi olaraq dərsdənkənar tədbirlərin, milli-mədəni dəyərlərlə bağlı dəyirmi masaların keçirilməsi, Azərbaycanın adət-ənənələrini əks etdirən teatr və konsertlərin təşkili, idman üzrə keçirilən yarışlarda əcnəbi tələbələrin iştirak etməsi istiqamətində universitetdə mühüm işlər görülür. Həmçinin əcnəbilər Kulinariya Mərkəzində milli mətbəx nümunələrimizin təbliğinə cəlb olunurlar.

***– Əvvəlki illərdə məzun olan tələbələrdən Naxçıvanda qalıb işləyən varmı?***

– Əlbəttə. Pedaqoji fəaliyyətlə məşğul olan və istehsalatda çalışan bir neçə məzunumuz var. Onlarla da müntəzəm əlaqə saxlayırıq. Xarici ölkə vətəndaşları kimi muxtar respublikada yaşamaları, işləmələri üçün yaradılan şəraitdən razılıq etmələri bir naxçıvanlı kimi bizdə də qürur doğurur.

***– Naxçıvan Dövlət Universitetində beynəlxalq əlaqələrin genişləndirilməsi, dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələri ilə əməkdaşlığın təşkili inteqrasiya sahəsində aparılan məqsədyönlü işlərdən biridir. Öyrənmək istərdim ki, universitetin ümumi olaraq neçə ölkənin ali təhsil müəssisəsi ilə əlaqəsi var?***

– Naxçıvan Dövlət Universitetinin Amerika Birləşmiş Ştatları, İngiltərə, Fransa, Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası, Rusiya, Macarıstan, Misir Ərəb Respublikası, Pakistan İslam Respublikası, Cənubi Koreya Respublikası, Çin Xalq Respublikası, Avstriya və digər ölkələrin universitetləri ilə əməkdaşlıq əlaqələri mövcuddur. Bu əlaqələrin ifadəsi kimi Naxçıvan Dövlət Universitetinin nümayəndə heyətinin 8-16 iyul 2021-ci il tarixlərdə Türkiyənin prestijli universitetlərinə rəsmi səfər etməsi qeyd oluna bilər. Bu səfər çərçivəsində Türkiyənin ən nüfuzlu universitetləri ilə beynəlxalq səviyyədə əməkdaşlıq müqavilələri imzalanmışdır. Eyni zamanda Pakistanın Pəncab Universiteti ilə də beynəlxalq əməkdaşlıq sahəsində müqavilə imzalamaq üçün danışıqlar aparılır. Əlavə olaraq qeyd etmək istərdim ki, 3 sentyabr 2021-ci il tarixdə “Times Higher Education” (The World University Rankings 2022) dünya universitetləri portalında reytinq sıralamasında dünyanın ən yaxşı universitetləri arasında Naxçıvan Dövlət Universiteti də yer almışdır. Universitetimizə müəyyən vaxtlarda səfər etmiş diplomatik səfir və nümayəndələr ilə akademik və rəsmi səviyyədə görüşlər keçirilmiş, həmin ölkələrin ali təhsil müəssisələri ilə də beynəlxalq əlaqələrin qurulması sahəsində bir sıra addımlar atılmışdır. Universitetin beynəlxalq əlaqələri hər gün daha da genişlənir və ümid edirik ki, bu proses daim davam edəcək.





*Universitetin Beynəlxalq əlaqələr şöbəsinin müdiri İlahə xanımla söhbətdən sonra əcnəbi tələbələrdən də bir neçəsi ilə görüşdük.*



Türkiyənin Van şəhərindən gələn ***Murad Batın Dəmirtürk*** dedi ki, uşaq yaşlarımdan həkim olmaq istəmişəm. Bizim bir ailə dostumuz var. Onun qızı Naxçıvan Dövlət Universitetində oxuyurdu. Tövsiyə etdilər ki, mən də tibb təhsilimi Naxçıvanda alım. Ailəmiz ilə birgə ölçdük-biçdik, burada oxumağıma qərar verdik. Qardaş, dost ölkəyik, dinimiz, dilimiz birdir. Burada özümü heç vaxt yad yerdəki kimi hiss etmirəm. İlk vaxtlar bir az çətinliyim oldu. İndi isə Naxçıvan, müəllimlərim, dostlarım – hamısı mənə doğmadır. Buraya elə öyrəşmişəm ki, Naxçıvandan getmək istəmirəm. Bir məqamı da qeyd etmək istərdim. Azərbaycan xalqı və türk milləti Qarabağın, Şuşanın işğalı ilə heç vaxt barışmadı. Ürəyimizdə yaşatdıq bu həsrəti. Ermənilər havadarlarının köməyi ilə nə vaxtsa silahsız olan Azərbaycandan alınan torpaqların elə onlarda qalacağını güman edirdilər. Ancaq Azərbaycan xalqı qələbə çalacağına inanırdı. “Şuşa, can Şuşa, gələcəyik və yenidən səninlə görüşəcəyik” inamı yaşayırdı hər bir azərbaycanlının ürəyində. Biz də eləcə. Zaman dəyişdi, Azərbaycan qüdrətli dövlətə çevrildi. Şuşanın və bütün Qarabağın azad edilməsi Azərbaycanın gələcək inkişafı üçün çox vacib məsələdir. O hissi ifadə etməkdə çətinlik çəkirəm. Hər Azərbaycan şəhərinin, kəndinin azadlığı barədə xəbərləri izləmək və illərlə işğalda olan Qarabağımızın Azərbaycanın müzəffər Ordusu tərəfindən azad edilməsi qürurumu artırdı, sevincimin üstünə sevinc gətirdi. Zəfər Azərbaycanındır. Bizim ruhumuz, ürəyimiz can Azərbaycanladır! Qarabağ Azərbaycandır!



Nigeriyalı tələbə ***Joseph Okpamen*** bildirdi ki, Naxçıvan Dövlət Universitetini məndən əvvəl burada oxuyan həmvətənlərim sayəsində seçmişəm. Müasir şəraitli tələbə yataqxanasında qalıram və bu da mənim üçün hər cəhətdən rahat və sərfəlidir. Təhsilin səviyyəsi yüksəkdir. Tədrisdə ən müasir texnologiyalar tətbiq olunur. Naxçıvanda insanlar arasındakı mehribançılıq, qonaqpərvərlik məni buraya daha çox bağlayır. Hara gedirəmsə, insanlardan həmişə isti münasibət görürəm. Pandemiyanın yaratdığı müəyyən çətinliklərin aradan qaldırılması məqsədilə, milli və dini bayramlarda muxtar respublika rəhbərinin xüsusi qayğısının şahidi olmuşam. Bu bizim doğmalarımızda da təhsil aldığımız məkan haqqında müsbət rəy, əminlik yaradır. Buranın təmiz, abad, səliqəli və təhlükəsiz yer olması bütün xarici tələbələrin ürəyincədir. Tərəddüd etmədən günün istənilən saatında şəhərə çıxmaq imkanımız var. Universitetin kitabxanasından, elektron oxu zalından mütəmadi istifadə edirəm. Qeyd edim ki, Naxçıvan mənim üçün olduqca rahat bir məkandır.



Digər bir həmsöhbətim isə Türkiyənin Bursa şəhərindən olan ***Əsra Akkoyunlu***dur: – Naxçıvanda təhsil almağın çox böyük imkanları var. Oxuduğum müddətdə mənimlə xoş ünsiyyətdə olan müəllimlər və səmimi dostlar əldə etdim. Nə zaman müəllimlərimə hansısa məsələ ilə bağlı müraciət etmişəmsə, qısa zamanda cavab almışam. Dilimizin, kökümüzün, adət-ənənələrimizin, tariximizin bir olması imkan verir ki, bir-birimizi daha yaxşı başa düşək. Buraya daha yaxından bələd olduqca görürəm ki, Naxçıvan, həqiqətən də, ən qədim Oğuz-türk yurdudur. Bu torpağın hər qarışında əcdadlarımızın yaratdığı böyük mədəniyyətin, qədim tarixin izləri var.

*Beləcə, Naxçıvan Dövlət Universitetinə bu dəfə əcnəbi tələbələrin gözü ilə baxdıq. Onların dilindən təhsil ocağımız, müəllimlər, tələbə yoldaşları ölkəmiz və xalqımız, eləcə də qədim diyarımız barədə xoş sözlər eşitdikcə biz də qürurlandıq. Əmin olduq ki, onların hər biri vətənlərinə mütəxəssis kimi geri dönəndə həm də doğma diyarımıza olan sevgilərini və xoş təəssüratlarını ətraflarındakı insanlarla məmnunluqla bölüşəcəklər.*

**Aytac CƏFƏRLİ**



***“Naxçıvan” Universitetində “Müasir dünya siyasətində Azərbaycanın yeri və geosiyasi reallıqlar” mövzusunda elmi konfrans keçirilib.***

# Elmi konfrans keçirilib

Konfransı giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq tədbirin əhəmiyyətindən danışıb. Rektor 44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizdən bəhs edərək qeyd edib ki, Azərbaycan bu gün regionda lider dövlətdir. Azərbaycan xalqı Vətən müharibəsində ordusunun və Ali Baş Komandanın ətrafında sıx birləşərək məhz bugünkü tarixi zəfəri əldə edib.

“Böyük şahmat taxtasında Cənubi Qafqaz, İkinci Qarabağ müharibəsi və geosiyasi həmlələr” mövzusunda çıxış edən Beynəlxalq münasibətlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Emin Şıxəliyev bildirib ki, bu gün Azərbaycan strateji baxımdan son dərəcə mühüm region hesab edilir. ABŞ-ın keçmiş prezidenti Cimmi Karterin təhlükəsizlik məsələləri üzrə məsləhətçisi Zbiqnev Bjezinski “Böyük şahmat taxtası” əsərində Azərbaycan böyüklüyündə olan heç bir dövlətə ayırmadığı qədər geniş təhlili Azərbaycana həsr edib. O qeyd edib ki, müəllif Azərbaycanı Orta Asiyanın qapısı olaraq vurğulayır. Əsərdə sübut edilir ki, Azərbaycanın strateji mövqeyi ədalətli olduğu üçün heç kim üçün problem hesab oluna bilməz.

Sonda tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanov da konfransda müzakirə olunan mövzularla bağlı öz münasibətini bildirərək tələbələrin suallarını cavablandırıb.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***



*Lal Arazın sahilində qulaqbatıran hayqırtılar, yanan ürəklər, sönən çıraqlar*

# Solan üfüqlərdən parlayan şəfəqlərə

## Oktyabr bu yurda qara qış da gətirdi, al-əlvan çiçəkli yaz da

Xatırlamıram... Mən deyim on, siz deyin on beş il öncə... Araz çayı boyunca dolambac yollarla irəliləyirdi avtobus. Çayın o tayından dağıdılmış, viran edilmiş evlər dəyirdi gözə. Bu evlər o evlər idi ki, bir zamanlar zəngilanlılara doğma ocaq, isti qucaqdı. Baxdıqca ürəkdağlayan mənzərədən boylanan o evlər kədər, iztirab, tənhalıq, çarəsizlik, tükənmişlik hayqırışlarıyla “bizi qurtarın bu zülmdən” deyirdilər, sanki. Dili olsa, yalvarar, gözü olsa, qan ağlayardı, bəlkə də, o daşlar, o divarlar... Arazın həzin laylasını dinləyərək onun qoynuna sığınan bu evlər elə Araz qədər dərdli idi. Bu, hicran dərdi idi. Vətənindən qoparılan yurdun Vətən həsrəti dərdi...

29 oktyabr 1993-cü il... Zəngilanın işğal günü idi bu qanlı-qadalı gün. Zəngilanlıların mənəvi sıxıntılarının və öz Vətənində qaçqınlıq ağrılarının başladığı gün idi. Həmin günlərdə rayon mühasirəyə düşsə də, gözü dönmüş yağı düşmənin ordu hissələrinə qarşı Zəngilan tək döyüşürdü. Çətinliklə də olsa, hücumların qarşısı alınırdı. Əlverişli yüksəkliklər uğrunda ağır döyüşlər gedirdi. Mərmi, güllə səsləri gecəli-gündüzlü Zəngilanın aydın səmasına qara buludlar gətirirdi. Döyüşlər səngimirdi. Çox gərgin günlər yaşanırdı. Qətiyyət, vətənsevərlik düşmənin niyyətini çilikləyirdi. Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğal olunması Zəngilanın müdafiəsini xeyli çətinləşdirmişdi. Düşmən həm Mehri, həm Qafan, həm də Cəbrayılın qəsb olunmuş ərazilərindən rayonun mərkəzinə və kəndlərinə qoşun yeritdi.

Rayonda yaradılmış özünümüdafiə dəstələrinin fədakarlığı ilə zəngilanlılar düşmənin hücumlarını dəf etsə də, böyük strateji əhəmiyyətə malik olan yüksəkliklər ermənilərin əlində cəmləşmişdi. O vaxt baş verən bu hadisə “Şayıflı faciəsi” kimi tarixin qara səhifəsinə yazıldı. Həmişə Zəngilana yağlı tikə kimi baxan ermənilərin arzusu gerçəkləşdi. 1988-ci ildən başlayaraq 1993-cü ilin oktyabrına kimi ön cəbhəyə çevrilsə də, Qubadlının, Cəbrayılın işğalı Zəngilan rayonunu blokadaya saldı. Bir neçə ay blokada şəraitində yaşadı. Ermənilər Zəngilanda ikinci bir Xocalı faciəsi törədəcəkdilər ki, zəngilanlılar güclü erməni hücumlarına tab gətirməyib, köməksiz qaldıqlarından yeganə çıxış yolu kimi Araz çayını keçməyə cəhd etdilər. Bu zaman lal axan Arazın sularına əbədi qərq oldu bir çox soydaşımız. Torpaqlarımız uğrunda gedən döyüşlərdə zəngilanlılar 235 şəhid verdilər. 200-dən çox adam ömürlük şikəst oldu, yüzlərlə ailə başsız qaldı. Əhali öz doğma el-obasından didərgin düşdü. Min bir zəhmətlə daşı daş üstə qoyub, özünə isti ocaq quran insanlar evini atıb ayaqyalın getməyə məcbur oldular. Ancaq bütün bu çəkdikləri acılar yandırılan evlərinin tüstüsünün ərşə dirənməsini izləmək qədər ağır gəlməmişdi zəngilanlılara. Yurdundan didərgin düşmüş neçə-neçə qaçqın, köçkün bu həsrətə dözə bilmədi. Ağır dərd onların qəddini əydi, yurd həsrəti neçə-neçə insanın ürəyini yandırdı. Yuvasından didərgin düşənlər də bax beləcə o həsrət tonqalının alovunda qovrulurdular.

### *Oğuz yurdundakı tarixi izlər*

Zəngilanın çox qədim keçmişi var. Alimlərin apardığı arxeoloji qazıntılar nəticəsində məlum olub ki, eramızdan öncə də burada yaşayış məskənləri olub. Şahi-şərfan şəhəri, Məmmədbəyli türbəsi, Muğanlı günbəzi, Dəlikdaş abidəsi, Ağ Oyuq düzündəki Koroğlu daşı üzərində Orxon Yenisey əlifbası ilə yazılan daş kitabə və neçə-neçə tarixi izlər bu yerlərin qədimliyindən xəbər verir. XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzviniyə aid mənbələrdə Zəngilanın əsasının hicri tarixin 15-ci ilində, yəni 636-cı ildə qoyulduğu qeyd olunub. Zəngilan şəhərinin əsl adı Pircavan, yaxud da Pirçivan olub. Zəngilan isə həmin şəhərin və ətraf kəndlərin yerləşdiyi tarixi mahalın adı imiş. İlk adı Pircavan olan bu şəhər isə yalnız 1957-ci ildən Zəngilan adlandırılıb və 1967-ci ildə bu inzibati ərazi dairəsinə şəhər statusu verilib.

### *Əsrarəngiz Zəngilandakı zəngin təbii sərvətlər*

Bir zamanlar Vətənimizin od tutub yanan xəritəsindən bir qədim türk yurdu, Oğuz elinin bir parçası kimi boylanır Zəngilan – təbiətin neçə-neçə möcüzəsinin, tarixi-memarlıq abidəsinin, qədim qalaların, uca dağların, sıx meşələrin, dərələrin, çayların, bulaqların məskəni kimi. Burada səhərlər çıxan Günəşi öncə Rəzdərə, Qaraöyün, Qazanşı, Zərnəli, Sobu zirvələri bağrına basır, mamırlardan süzülən buz bulaqların min-min damcısı sübh şəfəqlərini muncuq-muncuq doğrayır. Qədimlik, ululuq hər gün öz beşiyindən təkrar baş qaldırır.

Zəngilan cənnətməkan yurd idi. Dərdimizdən hali olan dağlar, meşələr, mərcan gözlü bulaqlar... Zəngəzur dağlarının şəlalə hörüklü sularından yaranan Araz, Həkəri, Oxçu, Bəsit, Baharlı çayları... Bar-bəhərli bağları, Beşkər, Süsən, Top meşələri vardı. Zəngilan özünün Bəsitçay çinar meşəsi ilə şöhrət qazanmışdı. Dünyada ikinci, Avropada yeganə olan bu təbii çinarlığın ümumi sahəsi 117 hektara çatırdı, 1974-cü ildə dövlət qoruğu elan edilmişdi.

### *20 oktyabr 2020-ci il... Zəngilanın zəfər zənginin çalındığı o gün...*

Zəngilana gedən yol Cocuq Mərcanlının həndəvərindən ötüb keçir. İndi bu yol olduqca hamar, rahat və çox genişdir. Zəngilanın işğaldan azad edilməsi yolun görkəmini də gözəlləşdirəcək. Bu yolu ruhun cana qayıdışı kimi gedəcəyik. Azərbaycan əsgərinin qüdrətinin nişanəsi kimi ağır-əziz edəcəyik, qurbanlar kəsəcəyik bu yollarda, nəzir-niyazlar deyəcəyik müqəddəs torpağımızın qayıdışına.

2016-cı ilin Aprel döyüşlərindən sonra Zəngilana aparacaq yollar bir neçə kilometr qısaldığına görə ürəyi Vətən həsrəti ilə döyünən yurdsevər zəngilanlıları əsrarəngiz və təkrarolunmaz təbiətə, zəngin yeraltı və yerüstü sərvətlərə, qədim tarixə malik doğma və unudulmaz Zəngilanımıza bir az da yaxınlaşdırdı. “Aprel döyüşlərinin davamı bizi Zəngilanla qovuşduracaq!” inamıyla gecələri gündüz edirdik...

Davamı 2020-ci ilin sentyabrın 27-də gəldi. Ermənilərin hücumuna qarşı keçirilən əks-hücum əməliyyatı Vətən müharibəsi kimi davam etdi. Döyüşlərdə ordumuz neçə-neçə strateji yüksəkliyi, kəndləri, qəsəbələri işğaldan azad etdi. Suqovuşan, Hadrut, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Laçının, Kəlbəcərin bir çox kəndləri işğaldan azad edildi, Azərbaycan əsgəri Xudafərin körpüsündə Azərbaycan bayrağını dalğalandırdı.

Və yenə oktyabr gəldi. Yox, bu dəfə Zəngilana qara qış gətirmək üçün deyil, al-əlvan çiçəkli yazı yaşatmaq üçün... Bu dəfə gəlişiylə yurdumuza Zəngilanın zəfər sevincini gətirdi oktyabr... Qalib sərkərdə, Müzəffər Ali Baş Komandanın xalqa bəyan etdiyi ***“Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində azad edilən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri!..”*** qələbə müjdəsi qəlbi yurd sevgisiylə döyünən zəngilanlıların hər daşına, hər qayasına, kəhrizinə, bulağına, yaylağına, oylağına getmək üçün bir quştək qanad çalıb, ruh cana qayıdan təki Zəngilana qayıtmaq istəyini daha da alovlandırdı.

### *Həsrətdən vüsala gedəcək bu qatarlar*

Birinci Qarabağ müharibəsinin açdığı yaraya İkinci Qarabağ müharibəsində qazandığımız Qələbə məlhəm oldu. Fevralın 14-də Prezident cənab İlham Əliyev Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olarkən Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməlini qoydu. ***“Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə, ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək”***, – deyən dövlət başçımızın bu müjdəsi 30 il hicran alovunda alışıb yanan zəngilanlıların tükənməyən ümidlərini parlaq şəfəqlə saçan nurlu üfüqə çevirdi.

### *Zəngilanı Naxçıvana, Naxçıvanı bütöv Azərbaycana qovuşduracaq bu yollar*

Bu gün Naxçıvanla Zəngilanı, təxminən, 40 kilometrlik məsafə ayırır ki, haqqında danışılan Zəngəzur dəhlizi də məhz həmin əraziləri birləşdirir. Bu il aprelin 26-da cənab Prezident, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olarkən Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlqoyma mərasimi keçirildi. Təməlqoymadan dərhal sonra layihənin icrasına başlanıldı. İşğaldan azad olunmuş ərazilərdə dövlət başçımızın tapşırığı ilə artıq bir neçə yol layihəsinin icrasına başlanıldı. Bu layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayan möhtəşəm işlər idi. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun həm də strateji əhəmiyyəti var. Çünki sözügedən yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və illərdir, blokadada qalan Naxçıvanı bütöv Azərbaycana əbədi qovuşduracaq. Elə may ayının 10-da Prezident cənab İlham Əliyev Naxçıvana səfəri çərçivəsində Ordubadda dəmir yolu stansiyası ilə tanış olduqdan sonra verdiyi müsahibəsində vurğuladığı fikirlər də xalqımızda daha böyük əminlik yaratdı: ***“Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan, təqribən, 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki açılmalıdır və açılacaqdır”.***

### *Aydın səmalarda bərq vuracaq “ağ göyərçinlər”*

***“...Zəngilan Beynəlxalq Hava Limanının təməl daşını qoyduq. Yaxın gələcəkdə Zəngilanda beynəlxalq hava limanı inşa ediləcək”.*** Zəngilanda beynəlxalq hava limanının təməlqoyma mərasimində cənab Prezidentin söylədiyi bu fikirləri dinləyərkən necə də qürurlandıq xalq olaraq... Çünki həyata keçirilən bu tədbir Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün atılan mühüm addım idi. ***“Təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və Şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaqdır”.*** Bəli, ölkə başçısının da dediyi kimi Zəngilanda hava limanının tikilib istifadəyə verilməsi Azərbaycan üçün Şərqə yeni qapı açacaq. Başqa sözlə, Zəngəzur dəhlizinin açılması növbəti tarixi nailiyyət olacaq və Şərqi Zəngəzurdan Qərbi Zəngəzura uzanan bu nəqliyyat arteriyası, nəinki region ölkələri, eyni zamanda geniş anlamda iqtisadi fəallığı təmin edəcək.

### *“Ağıllı kənd”də ağlabatan, ürəyəyatan işlər*

İlk olaraq Zəngilan rayonunun Ağalı kəndində təməli qoyulan “Ağıllı kənd” layihəsi... Bəs nədir mahiyyəti bu layihənin? Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri, ağıllı texnologiyalar əsasında bir-birindən gözəl, gözoxşayan binalar... Suvarma sistemindən tutmuş torpağın əkilib-becərilməsinə, məhsulun toplanmasına kimi avtomatlaşdırılmış, bir mərkəzdən idarə olunan və bütün platformanın birgə idarə olunduğu unikal sistem... Azad edilmiş ərazilərdə salınan ilk “Ağıllı kənd”in sakinləri olmaqdan qürur hissi keçirən vətəndaşlar əminəm ki, bu layihə əsasında aparılan tikinti-quruculuq işlərinin yekununu və tezliklə kəndə qayıtmaq, burada həmişəlik yaşamağı səbirsizliklə gözləyirlər.

### *Yurd nisgilindən pöhrələnmiş sevinclərə*

*Bu gün xalq olaraq hər birimiz xoşbəxtik, qürurluyuq, alnıaçıq, başıucayıq. Çünki artıq soydaşlarımız doğma ocaq həsrəti, yurd nisgili ilə deyil, xoşbəxt sabahlara açılan pöhrələnmiş sevinclərlə yaşayır. Artıq al-əlvan Süsən dağları, səfalı Şükrətaz yaylağı, Çinarlı meşəsi, Bəsitçay, Oxçuçay düşmən əsarətindən qurtulub. Erməni xislətindən daşı daş üstündə qalmayan Zəngilanın qədim yurd yerlərində indi həyat yenidən canlanır. Bu gün artıq bir ildir ki, müzəffər Ordumuzun rəşadəti, şəhid və qazilərimizin qəhrəmanlıqları sayəsində üçrəngli bayrağımızın Zəngilanda yenidən dalğalandığı o xoş sabahlara addımlayırıq. Övladlarının bəxtəvər gününü görüb bəxtiyar olan ana yurdum Azərbaycan! Sən artıq bütövsən, əbədisən, əzəlisən! Sən xoşbəxt övladlarının qoynuna sığındığı qibləgahsan, səcdəgahsan! Sən müqəddəs Vətənsən! Duaların qəbul oldu, anam Azərbaycan! Allah səni hifz etdi. İllər sonra qovuşduğun hər parçanla dünya durduqca var ol, azad, müstəqil, məsud, şanlı Azərbaycan!*

**Gülcamal TAHİROVA**

# “Sirlər xəzinəsi” poemasının müzakirəsi keçirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin əməkdaşlarının iştirakı ilə dahi şair Nizami Gəncəvinin “Oxunması zəruri olan kitabların siyahısı”na daxil olan “Sirlər xəzinəsi” poemasının müzakirəsi keçirilib.*

Tədbiri giriş sözü ilə mərkəzin elmi katibi Nihad Tarverdiyev açaraq qeyd edib ki, 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 2021-ci il 5 yanvar tarixdə Sərəncam imzalayıb.

Bildirilib ki, Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi böyük ədəbi şəxsiyyətlərdən biri olan görkəmli şair və mütəfəkkir Nizami Gəncəvi ölməz əsərləri ilə dünya şöhrəti qazanmışdır. Nizami Gəncəvinin geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. “Sirlər xəzinəsi” poeması haqqında danışan elmi katib qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli “Oxunması zəruri olan kitablar haqqında” Sərəncamı ilə təsdiq olunmuş siyahıya daxil edilən “Sirlər xəzinəsi” poeması sənətkarın “Xəmsə” poemalar silsiləsinə daxil olan ilk əsəridir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, yazıçı, şair, dramaturq, publisist Asim Yadigar çıxış edərək bildirib ki, Azərbaycan ədəbiyyatının ölməz korifeyləri içərisində Nizami Gəncəvinin özünəməxsus yeri var.

Vurğulanıb ki, “Sirlər xəzinəsi” poeması qüdrətli sənətkarın bütün ömürboyu yaradıcılığında başlıca ideyanı təşkil edən kamil insan – ədalətli hökmdar ideyasına həsr olunub, özündə kamil əxlaqlı insan, ədalətli idarəçilik və mərhəmətli hökmdar haqqında fikirlər əxz edir.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun, Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin üzvü Muxtar Qasımzadə çıxış ediblər.

Sonda mərkəzdə yaradılan sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

***Ötən il 44 günlük Vətən müharibəsində ordumuz ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə güclü səbir, təmkin, ruh yüksəkliyi və peşəkarlıq nümayiş etdirərək tarixi ədaləti bərpa etdi, 30 illik Vətən həsrətimizə son qoydu. Qəlbi Vətən eşqi ilə yanan mübariz, vətənpərvər oğullarımız düşmənə sübut etdi ki, Qarabağ Azərbaycanın milli qeyrəti və ləyaqət simvoludur.***

*Əfsanəyə dönən ömürlər*

# Qısa ömrün şərəfli yolçusu...



Vətən müharibəsinin başladığı ilk gündən etibarən muxtar respublikamızın digər bölgələri kimi, Şərur rayonundan da igid oğullar tarixi ədalətin bərpası uğrunda, üçrəngli bayrağımızın bütöv Azərbaycanda dalğalanması naminə ölkəmizin müdafiəsinə qalxdılar. Təbii ki, müharibə şəhidsiz, şəhidsizsə Vətən olmur. Minlərlə mərd oğul canı, qanı bahasına öz şəhadətləri ilə ən ali zirvəyə – şəhidlik mərtəbəsinə ucaldı. Belə gənclərdən biri də torpağına, Vətəninə sonsuz sevgi və məhəbbətlə bağlı olan Novruzov Pərviz Qorxmaz oğludur.

Pərviz bir payız fəsli, 1997-ci il oktyabr ayının 15-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Çərçiboğan kəndində dünyaya göz açmışdı. 2004-2015-ci illərdə doğma kəndlərində tam orta təhsilini alan Pərviz məktəbi bitirdikdən sonra vəzifə borcunu yerinə yetirmək üçün ordu sıralarına qoşulmuşdu. Qeyd etmək lazımdır ki, Pərvizin hərb sənətilə ilk tanışlığı, bu sahəyə olan böyük sevgisi məhz evlərindən, atasının açdığı "Vətən" cığırından başlamışdı. Belə ki, atası Qorxmaz Novruzov da ötən əsrin 80-ci illərin sonlarında Sədərək uğrunda gedən döyüşlərdə könüllü iştirak edərək böyük cəsarət və hünər göstərmişdir.

Şəhidimizin həyatı, şəxsi keyfiyyətləri, hərbi xidməti – bir sözlə, keçdiyi şərəfli ömür yolu barədə ətraflı məlumat əldə etmək üçün Şərur rayonunun Çərçiboğan kəndindəki evlərinə yollanıram. Evdə məni ilk qarşılayan Pərvizlə bağlı guşə olur. Əbəs yerə demirlər, "nur üzlü şəhidim"... Hər fotoda eyni mənzərə canlanır: ucaboylu, məğrur duruşlu və gülümsəyən xoş simaya malik bir gənc.

Pərvizin atası Qorxmaz Novruzovla həmsöhbət oluruq. Qorxmaz əmi kövrələrək "Pərviz ailəmin sonbeşiyi idi", – deyir və davam edir: – Pərvizdən başqa bir oğlum, iki qızım da var. Övladlarıma hər zaman Vətəni sevməyi, onun uğrunda lazım olsa, canlarından, qanlarından belə, keçməyə hazır olmalarını öyrətmişəm. Öyrətmişəm ki, mövzu Vətəndirsə, sən, mən yoxdur, biz varıq.

Deyir ki, hərbçi olmaq Pərvizin öz seçimi və arzusu idi: "Bir valideyn kimi, övladımın bütün qərarlarının arxasında olmuşam və dəstəkləmişəm. Pərvizi tanıyan hər kəs etiraf edər ki, asan yolu seçmək onun xislətində yox idi. Bu baxımdan öz istəyi ilə Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etməyi seçmişdi. Xidməti dövründə "Ən yaxşı kəşfiyyat qrupu" yarışında 1-ci yeri tutduğuna görə fəxri fərmanla da təltif olunmuş və xidmətini kəşfiyyatçı əsgər kimi başa vurmuşdu. Komandirləri dəfələrlə zəng edərək bu torpağa Pərviz kimi oğul bəxş etdiyimiz üçün təşəkkür ediblər".

Bu məqamda şəhidimizin anası Sənubər xanım söhbətə qoşulur:

– Pərvizim həm də ailəcanlı, mehriban və dürüst insan idi. Tapşırılan heç bir işdən boyun qaçırmaz, yorulmaz, sonacan yerinə yetirərdi.

Hərbi xidmətdən qayıtdıqdan sonra yenidən ordu sıralarına qoşulmaq istədiyini dedi. Bilirdik ki, onu verdiyi qərardan döndərmək çətindir. Bu səbəbdən də etiraz etmədik. Sonra xidmətini eyni hərbi birləşmədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu olaraq davam etdirdi.

"Hərb sirri bizimlə məzara gedəcək", – deyirdi hər zaman. Ondan bu mövzu ilə bağlı söz almaq çox çətin idi. Vətən müharibəsinin başladığı ilk gündən ara-sıra telefonla əlaqə saxlayırdı. Deyirdi ki, Vətənin çətin günlərində kənarda dayanmağı özümə rəva bilmərəm, mənim üçün narahat olmayın, bizlərə dua edin. Mən şəhid qardaşlarımdan, sən də şəhid analarından artıq deyilsən.

Sonuncu dəfə oktyabrın 8-i evə gəldi. "Bir neçə həftəlik təlimlərimiz var, sonra yenidən evə qayıdacam", – deyərək çantasını yığmağa başladı. Müharibəyə getdiyini evdə heç kimə bildirmədi. Qapıdan çıxarkən son dəfə gülə-gülə "ölməyə yox, öldürməyə gedirik", – dedi və birdəfəlik getdi. Son dəfə oktyabrın 23-ü gecə saat 2-də dostuna zəng edib ki, evdəkilərə xəbər et, narahat olmasınlar. Bu yaxınlarda qələbə müjdəsi verəcəm onlara. Yolumu gözləsinlər...O vaxtacan bilmirdim ki, oğlum müharibəyə gedib.

Noyabrın 8-dək Sənubər ana hər gün, hər saat, hər dəqiqə övladının yolunu gözləyir, gözləri yol çəkir.

Bu zaman onu təsəlli edən ən böyük qızı – Pərvizin bacısı Gülxar olur. "Şəhid bacısı olmaq qürurlu və şərəflidir. Pərviz və onun kimi qeyrətli oğullarımız vaxtilə Xocalıda təhqirlərə məruz qalan ana-bacılarımızın, namərd süngüsünə çəkilmiş körpələrimizin qisasını aldı", – deyir Gülxar. Onu da bildirir ki, əminəm, qardaşım və onunla birgə əbədi uyuyanların yeri çox rahatdır. Çünki uğurlarında canlarından keçdikləri doğma Vətən torpaqları bu gün azaddır.

Deyirlər, gələcək cəmiyyətin necəliyi müəllimdən asılıdır. Şagird doğruluğu, səmimiliyi, saflığı, ətrafa, cəmiyyətə hörmət və məhəbbəti, vətənpərvərlik kimi yüksək mənəvi və əxlaqi keyfiyyətləri ikinci valideyn sayılan müəllimindən öyrənir. Elə şəhidimizin orta məktəb müəllimi Səttar Novruz da deyir ki, müəllimlik peşəsi, şübhəsiz ki, çətin və şərəflidir. Bu gün özümü həm də ikiqat xoşbəxt və qürurlu bir müəllim hesab edirəm. Çünki dərs dediyim şagirdlərdən biri ölkəmizin bütövlüyü uğrunda mərdlik və şücaət göstərərək şəhidlik mərtəbəsinə yüksəlib. Novruzlu Pərviz Qorxmaz oğlu atasının adını mənəviyyatında, öz ruhunda daşıyan oğul idi və qorxmazlığını da döyüşlərdə təcəssüm etdirdi.

Səttar müəllim deyir: "Pərviz nəinki məktəbdə, kənarda belə, öz müəllimlərinin, böyüklərinin ehtiramını saxlayar, böyüklə böyük, kiçiklə kiçik olmağı yaxşı bacarardı. Mən hesab edirəm ki, Vətən müharibəsində iştirak edən ən yaxşı oxuyandan ən zəif oxuyana qədər bütün şagirdlərimiz yer üzünün ələçı şagirdləridir".

Döyüşlər zamanı mənfur düşmənə qarşı göstərdiyi igidlikdən fəxrlə danışırlar döyüş yoldaşları da: – Pərviz döyüşlərdə, xüsusilə fərqlənib. Öz qanı ilə tarix yazan bu igidimiz dünyaya göz açdığı payız fəslində, müharibənin bitməsinə cəmi bir neçə saat qalmış Şuşa uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olub.

Deyirlər, payız soyuq günlər üçün hazırlıq məqamıdır. Lakin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz xəzan yelli payızı əbədi günəşli bahara çevirdi. Yarpağını tökən hər ağac şəhid qanı ilə yenidən çiçək açdı...Qarabağ əzəli və əbədi sahiblərinə qovuşdu.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Pərviz Novruzlu ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Əminliklə deyə bilərik ki, Vətən müharibəsində əldə edilən tarixi zəfər və parlaq qələbə Azərbaycan xalqının yenilməzliyini və həmrəyliyini bir daha dünyaya nümayiş etdirdi. Ölümün gözünə dik baxan şəhidlərimiz həm də vaxtilə daxili məcburi miqrasiya proseslərinə məruz qalmış, öz ata-baba yurdlarından zorla didərgin salınmış bir milyondan çox qaçqın və məcburi köçkünün ən böyük arzusunu, xəyalını gerçəkləşdirdi. Bu gün xalqımızın qəhrəman övladlarının canı və qanı bahasına işğaldan azad edilmiş torpaqlara qayıtmaq, bu müqəddəs torpaqları dirçəltmək, canlandırmaq, o yerlərdə yeni evlər tikmək, təsərrüfat sahələri yaradaraq, bir sözlə, burada daimi məskunlaşmaq arzusu və amalı məcburi köçkün həmvətənlərimizin Vətənə və milli dəyərlərə sadiqliyinin bariz nümunəsidir.*

**Arif BAYRAMOV**

## İdmançılarımızdan uğurlu nəticə




*Ağdam Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan universal döyüş növü üzrə turnir keçirilib.*

Turnirdə Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının idmançıları da mübarizə aparıb və mükafatçılar sırasına düşüblər. Belə ki, 35 kiloqram çəki dərəcəsində Fərid Orucov, 45 kiloqram çəki dərəcəsində Sadiq Kərimov, Uğur Əliyev, Rəhim Əşrəfov bütün rəqiblərinə qalib gələrək turnirin baş mükafatını qazanıblar. Sərdar Qurbanov (35 kiloqram), Əbülfəz Cəfərov (40 kiloqram), İbrahim Əlizadə (50 kiloqram), İsmayıl Hüseynzadə (50 kiloqram), Məhəmmədəli Qasımov (55 kiloqram) və Səhət Əsədov (60 kiloqram) yalnız final görüşlərində məğlub olaraq ikinci yerlə kifayətləniblər. İlqar Səfərli (30 kiloqram), Nurəddin Əliyev (30 kiloqram), Rəhim Quluzadə (35 kiloqram), Şahin Səfərli (45 kiloqram) və Fuad Quliyev (75 kiloqram) isə üçüncü olublar.

Qaliblərə təşkilatçıların diplom və medalları təqdim edilib.

## Muxtar respublika birinciliyi başa çatıb



*2006-2007-ci il təvəllüdlü oğlan və qız atletlər arasında keçirilən kross qaçışı üzrə muxtar respublika birinciliyinə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Atletika Federasiyasının birgə təşkil etdiyi birincilikdə 100-ə yaxın atlet qüvvəsini sınayıb.*

Birinciliyin mükafatlandırma mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının sədri Rəhman Məmmədov bildirib ki, bu gün muxtar respublikanın bütün ali təhsil ocaqlarında uşaq, yeniyetmə və gənclərin bu sahə ilə məşğul olmaları üçün hər bir şərait yaradılıb. Məhz bunun nəticəsidir ki, idmançılarımız keçirilən ölkədaxili birinciliklərdə uğurla çıxış edərək böyük nailiyyətlər qazanır. Bu qələbələr həm də digər idmançılar üçün əlavə stimuldur. Uğurlu çıxışlar yeniyetmə və gənclərin idmana cəlb edilməsində müstəsna rol oynayır. Rəhman Məmmədov idmana və idmançılara göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Gənclər və idman naziri Ramil Hacı çıxışında vurğulayıb ki, idman sahəsi muxtar respublikamızda sürətlə inkişaf edir və bu gün diyarımızda ölkədaxili və beynəlxalq yarışlar ən yüksək səviyyədə təşkil olunur. İdman sahəsində rəqabət kifayət qədər güclüdür və bütövlükdə, son illər ərzində idman sahəsində Naxçıvan idmançılarının göstərdikləri nəticələr qürurvericidir. Bu gün idmançıların uğur qazanması, onların bu sahəyə meyil göstərməsi, təbii ki, yaradılan şəraitlə bağlıdır. Muxtar respublikanın bütün şəhər və rayonları ilə yanaşı, kəndlərində də idman zallarının, obyektlərinin fəaliyyət göstərməsi həm də uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir. Atletika idman növünə marağın yüksək olması federasiyanın şəhər və rayonlardakı bölmələrinin uğurlu fəaliyyətinin nəticəsidir.

Yekun nəticəsinə gəlincə, 2 kilometr məsafədə qızların yarışında Sədərək idmançıları Aysu Abbasova, Zeynəb Babayeva və Nurşən Abbasova yarışı ilk üç pillədə başa vurublar. Oğlanların 5 kilometrlik yarışında qalib adını Kəngərli idmançısı Suad Eyvazov qazanıb. Şərur idmançısı Emil Cəfərzadə ikinci, Naxçıvan atleti Əliabbas Səfərov isə üçüncü olub.

Ümumilikdə, ilk 10 pilləni tutan idmançılar adlarını qaliblər siyahısına yazdırıblar.

Qaliblər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Təsviri incəsənət müəllimləri ixtisasartırma kursuna cəlb olunublar



Naxçıvan Müəllimlər İnstitutunda muxtar respublikamızın orta ümumtəhsil məktəblərində Təsviri incəsənət fənnini tədris edən müəllimlər üçün ixtisasartırma kursuna start verilib. On günə yaxın müddəti əhatə edəcək ixtisasartırma kursunun açılış tədbirində institutun İxtisasartırma və hazırlanma üzrə prorektoru Çapay Quliyev çıxış edərək kursların əhəmiyyəti barədə danışıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin şöbə müdiri Abdulla Əsgərov çıxışında bildirib ki, dövlətimizin qayğısı və diqqəti nəticəsində muxtar respublikamızda kadrların ixtisas səviyyəsinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır, bu istiqamətdə məqsədyönlü tədbirlər görülür.

Sonra müdavimlər institutun Təsviri incəsənət müəllimliyi ixtisası tələbələrinin rəsm əsərləri və əl işlərindən ibarət sərgiyə baxıblar.

Qeyd edək ki, ixtisasartırma kursunda bir sıra mövzularda təlimlərin keçirilməsi planlaşdırılıb. İlk dərs İncəsənət kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar rəssam Həbibə Allahverdiyevanın və kafedranın baş müəllimi Laman Məmmədovanın təqdimatında olub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Əmək yarmarkası keçirilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası oktyabr ayının 19-da Naxçıvan şəhərində keçirilib. Qeyd edək ki, sözügedən tədbirə işaxtaranlarla yanaşı, hərbi xidmətdən yeni tərxis olunmuş gənclər də dəvət olunub. Həmin gənclərə onların vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnməsi üçün peşə hazırlığı kurslarına cəlb olunması, əmək bazarına inteqrasiyası və özünüməşğulluqlarının həyata keçirilməsi ilə bağlı məlumatlar verilib.

Əmək yarmarkasında işaxtaranlara, ümumilikdə, 88 müəssisədən 703 boş iş yeri təqdim edilib. Nəticədə, 43 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 8 nəfərin isə özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb. Həmçinin əmək yarmarkasında peşə hazırlığı kurslarına 15 nəfərin qeydiyyatı aparılıb ki, onlardan 6 nəfərini hərbi xidmətdən tərxis olunmuş gənclər təşkil edib.

Növbəti əmək yarmarkası oktyabrın 21-də Şərur rayonunda keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Mehdiyeva Xalidə Məmmədəli qızının adına olan JN-1732 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Seyidov Mirkamal Mirismayıl oğlunun adına olan Culfa rayon Əbrəqunus kəndindəki JN-629[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 868